Kaspi.-S.18.

24 dekabr 2016

# Əli Sultanlı – 110

Görkəmli ədəbiyyatşünas, tənqidçi, Qərbi Avropa ədəbiyyatı mütəxəssisi professor Əli Sultanlı "Antik dövrdə bədiyyat və ədəbiyyat məsələləri" (1946), "Antik ədəbiyyatı müntəxabatı" (1950), "Antik ədəbiyyat tarixi" (1958), "Roma ədəbiyyatı müntəxabatı" (1959) kimi kitablarının dünya və Azərbaycan ədəbiyyatı ilə bağlı onlarla elmi məqalənin müəllifidir.

Görkəmli alim həm də bədii yaradıcılıqla məşğul olurdu. Onun arxivində işləyərkən əlyazmalar içərisində Əli Sultanlının ötən əsrin 20-ci illərində əski əlifba ilə qələmə aldığı "Ağlayıram", "Bir gül", "Bağışla", "Qərənfilim", "Qafqaz qızına", "Dəyirman", "İlk görüşümüz", "Qocalmış bir çobanın harayı", "Nə mən güləydim ah, nə sən ağlayaydın", "Ölkəm", "Unut" və s. şeirləri, "Qoşa dəyirman", "Səadət", "Batabat", "Cərrah", "Baratın pişiyi", "Sən də acizsən", "Qayanın eşqi" hekayələri, "Sənəm piri", "Çolpan" poemaları, "Ərtoğrul", "Doktor Nadirşin" romanları aşkar olunmuşdur.

Görkəmli alimin 110 illik yubileyi ərəfəsində oxuculara onun şeir və hekayələrindən bəzi nümunələri təqdim etməklə əziz xatirəsini yad etmək istəyirik.

**Leyla Ramazanova**
**Nizami adına Ədəbiyyat**
**İnstitutunun doktorantı**

Yerim yurdum quru, xalı yaş ellər,
Ömrüm tükəndi boş bihudə haray.

Çoxdan bəri susdu neyim, a dağlar,
Qocaldım, büküldü belim, a dağlar,
Dinlə son sözümü deyim, a dağlar,
Ömrüm tükəndi boş bihudə haray.

Yalvarıb-yaqardım sizin ellərə,
Atmasınlar bəni sarı sellərə,
El çökdü bən qaldım, uydum illərə,
Ömrüm tükəndi, boş bihudə haray.

Qoyun-quzu çöllər kibi qurudu,
Alışıb yaqıldı hep yutu-yurdu,
İmdi kəsdisə bən həqdən oxudu,
Ömrüm tükəndi boş bihudə haray.

Günlər axdı sellə ərimiş qar kibi,
Ömrüm tükəndi boş beyhudə haray,
Yaqaladı ölüm bir canavar kibi,
Həyat bir düş imiş beyhudə haray.

